Bakı Araşdırmalar İnstitutu

# 2022-ci il dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının gəlir və xərcləri




BAKI – 2022

# MÜNDƏRİCAT

**1. Dövlət büdcəsinin gəlir və xərcləri** **3**

1.1. Dövlət büdcəsi gəlirlərinin strukturu 3

*1.1.1. Dövlət büdcəsi gəlirlərinin quruluşunun qısa ümumi icmalı* *3*

*1.1.2. Dövlət büdcəsi gəlirlərində artımın ümumi qiymətləndirilməsi* *5*

1.2. Dövlət büdcəsi gəlirlərinin mənbələr üzrə təhlili 6

**2. Dövlət büdcəsinin qeyri-neft daxilolmalarının büdcənin cari xərcləri ilə müqayisəsi** **12**

2.1. 2022-ci il dövlət büdcəsi xərclərinin təhlili 12

*2.1.1. Xərclərin funksional strukturunun qısa icmalı* 12

*2.1.2. Hökumətin xərc prioritetlərində dəyişikliklər* *13*

*2.1.3. Xərclərin funksional istiqamətlər üzrə detallı icmalı* *14*

**3. Büdcədənkənar dövlət fondları** **23**

3.1. Azərbaycan Respublikasının Dövlət Neft Fondu 23
3.2. Dövlət Sosial Müdafiə Fondu 26
3.3. İşsizlikdən Sığorta Fondu 28

# 1. Dövlət büdcəsinin gəlir və xərcləri

Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, 2022-ci il dövlət büdcəsinin proqnozlaşdırılan gəlirləri 26816,0 milyon manat təsdiq olunmuşdur. Bu, 2021-ci il üçün təsdiq edilmiş proqnozdan 1389,0 mln. manat, yaxud 5,5%, 2020-ci il dövlət büdcəsinin faktiki icrası üzrə gəlirlərin məbləğindən 2134,3 mln. manat, yaxud 8,6% çoxdur.

Qanuna əsasən, 2022-ci il dövlət büdcəsinin proqnozlaşdırılan xərcləri 29879,0 milyon manat təsdiq edilmişdir. Bu, 2021-ci il dövlət büdcəsinin təsdiq olunmuş xərclər proqnozundan 1336,0 mln. manat, yaxud 4,7%, 2020-ci il dövlət büdcəsinin faktiki icra olunmuş xərclərindən 3462,7 mln. manat, yaxud 13,1% çoxdur.

Qanunda 2022-ci il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3063,0 mln. manat məbləğində müəyyən edilmişdir ki, bu da 2021-ci il üçün təsdiq edilmiş büdcə kəsiri proqnozundan 53,0 mln. manat, yaxud 1,7% az, 2020-ci il dövlət büdcəsinin faktiki kəsirindən 1328,4 mln. manat, yaxud 76,6% çoxdur. Kəsirin dövlət mülkiyyətində olan əmlakın özəlləşdirilməsindən daxil olan vəsait, daxili və xarici borclanma və 2022-ci il yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı (bu qalıq məbləği 1256,0 mln. manat müəyyən edilib) hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuşdur.

**Cədvəl 1. 2022-ci il dövlət büdcəsinin gəlirləri, xərcləri və büdcə kəsiri**

| | Məbləğ (mln. manat) | 2021-ci il dövlət büdcəsinin proqnozu ilə müqayisədə artım (azalma) | | 2020-ci il dövlət büdcəsinin icrası ilə müqayisədə artım (azalma) | |
|---|---|---|---|---|---|
| | | **mln. manat** | **faiz** | **mln. manat** | **faiz** |
| **Dövlət büdcəsinin gəlirləri** | 26816,0 | +1389,0 | 105,5 | +2134,3 | 108,6 |
| **Dövlət büdcəsinin xərcləri** | 29879,0 | +1336,0 | 104,6% | +3462,7 | 113,1% |
| **Büdcə kəsiri** | 3063,0 | -53,0 | 98,3% | +1328,4 | 176,6% |

## 1.1. Dövlət büdcəsi gəlirlərinin strukturu

### *1.1.1. Dövlət büdcəsi gəlirlərinin quruluşunun qısa ümumi icmalı*

2022-ci il dövlət büdcəsinin proqnozlaşdırılan gəlirlərinin 12710,0 mln. manatı (47,4%-i) Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) transferti, 5278,7 mln. manatı (19,7%-i) əlavə dəyər vergisi (ƏDV), 2670,0 mln. manatı (10,0%-i) hüquqi şəxslərin mənfəət vergisi, 1485,0 mln. manatı (5,5%-i) fiziki şəxslərin gəlir vergisi, 1266,8 mln. manatı (4,7%-i) aksizlər, 1150,0 mln. manatı (4,3%-i) gömrük rüsumları, 760,0 mln. manatı (2,8%-i) büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, 363,5 mln. manatı (1,4%-i) dövlət rüsumları, qalan 1132,0 mln. manatının isə digər mənbələr hesabına formalaşması gözlənilir (*diaqram 1*).

**Diaqram 1: 2022-ci il dövlət büdcəsi gəlirlərinin mənbələr üzrə strukturu, ümumi yekunda xüsusi çəkisi, faizlə**




**Mənbə:** *Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında* Azərbaycan Respublikasının Qanunu

2022- ci ildə dövlət büdcəsi gəlirlərinin formalaşmasının təşkilati quruluşunda *ARDNF 47,4%-lə (12710,0 mln. manat) üstün paya malik olacaq*. Dövlət büdcəsi gəlirlərinin 8820,0 mln. manatını (32,9%-i) Dövlət Vergi Xidmətinin (DVX), 4260,0 mln. manatını (15,9%-i) isə Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə daxilolmalar təşkil edəcək (*diaqram 2*).

**Diaqram 2: Dövlət büdcəsinin gəlir mənbələri (2021 və 2022-ci illər)**



Büdcə gəlirlərinin 760,0 mln. manatı (2,8%-i) ödənişli xidmətlər göstərən büdcə təşkilatlarının büdcədənkənar daxilolmaları, qalan 266,0 mln. manatı (1,0%-i)) isə digər təşkilatların hesabına formalaşacaq.

2021-ci illə müqayisədə 2022-ci ildə ARDNF-nin transferti 510 mln. manat (+4,2%), DVX-nin büdcə qarşısındakı öhdəliyi 1570,0 mln. manat (+21,7%), DGK-nın büdcə öhdəliyi isə 360 mln. manat (+9,2%) artırılmışdır.

2022-ci il dövlət büdcəsi gəlirlərində neft sektorundan birbaşa daxilolmalar yenə də üstün paya malik olacaq: gəlirlərin 14690,0 mln. manatı, yaxud *ümumi gəlirlərin 54,8%-i neft sektorundan birbaşa daxilolmalar formasında* olacaq. Neft sektorundan birbaşa daxilolmaların 86,5%-i ARDNF-nin transferti, 1350,0 mln. manatı, yaxud 9,2%-i Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) büdcəyə vergi ödənişləri, qalan 630,0 mln. manatı (4,3%-i) isə Hasilatın Pay Bölgüsü (HPB) sazişləri üzrə podratçı şirkətlərin mənfəət vergisi hesabına təmin ediləcək (*diaqram 3*).

**Diaqram 3: 2022-ci il dövlət büdcəsi gəlirlərinin neft-qaz və qeyri-neft sektorları üzrə quruluşu, ümumi yekunda xüsusi çəkisi, faizlə**




***Qeyri-neft sektorundan*** dövlət büdcəsinə il ərzində 12126,0 mln. manat (ümumi büdcə gəlirlərinin 45,2%-i) daxil olması proqnozlaşdırılır. Bu gəlirlərin 6840,0 mln. manatı vergi orqanlarının, 4260,0 mln. manatı gömrük orqanlarının, qalan 1026,0 mln. manatı isə başqa qurumlardan daxilolmaların hesabına təmin ediləcək.

### *1.1.2. Dövlət büdcəsi gəlirlərində artımın ümumi qiymətləndirilməsi*

Yuxarıda artıq qeyd etdiyimiz kimi, 2022-ci il dövlət büdcəsinin gəlirlərinin 2021-ci il gəlirlər proqnozu ilə müqayisədə ümumən 1389,0 mln. manat, yaxud 5,5% artması proqnozlaşdırılmışdır. Əvvəlki ilin proqnozları ilə müqayisədə 2022-ci ildə dövlət büdcəsinin

vergi daxilolmalarında 1729,5 mln. manatlıq, yaxud 15,8%-lik artım gözlənilir. Digər gəlirlər üzrə büdcəyə daxilolmalarda isə 340,5 mln. manatlıq azalma nəzərdə tutulur.

Vergilər üzrə detallaşdırsaq, 2022-ci ildə əvvəlki ilin proqnozları ilə müqayisədə büdcəyə daxilolmaların ƏDV üzrə 568,7 mln. (12,1%), mənfəət vergisi üzrə 526,0 mln. (24,5%), fiziki şəxslərin gəlir vergisi üzrə 335,0 mln. (29,1%), aksizlər üzrə 207,8 mln. (19,5%), idxal rüsumları üzrə 200,0 mln. (21,1%), mülkiyyət vergiləri üzrə isə 26,0 mln. (10,2%) manat artması gözlənilir. Sadələşdirilmiş vergi üzrə daxilolmalar isə 95,0 mln. manat (32,2%) azala bilər (*diaqram 4*).

**Diaqram 4: 2022-ci il dövlət büdcəsinin gəlirlərində əsas mənbələr üzrə artım (azalma) məbləği, 2021-ci ilin proqnozu ilə müqayisədə, mln. manatla**




Diaqram 4-dən göründüyü kimi, əvvəlki illə müqayisədə 2022-ci ildə ARDNF-dən dövlət büdcəsinə transfertin 510,0 mln. manat, yaxud 4,2% artırılması nəzərdə tutulmuşdur. Bununla yanaşı mal və xidmətlərin satışından daxilolmaların əvvəlki illə müqayisədə 323,6 mln. manat, yaxud 35,7% artması gözlənilir. Burada xüsusilə dövlət rüsumlarının məbləğində olan 193,5 mln. manatlıq, yaxud 113,8%-lik artım diqqəti cəlb edir.

2021-ci ildən fərqli olaraq, 2022-ci ildə Mərkəzi Bankın mənfəətindən dövlət büdcəsinə ayırmalar və Dövlət Borcuna Təminat Fondundan dövlət büdcəsinə transfert nəzərdə tutulmur. Ötən il bu iki mənbə üzrə birlikdə dövlət büdcəsinə 1130,0 mln. manat vəsait daxil olmuşdu.

2021- ci ilin proqnozu ilə müqayisədə neft sektorunun gəlirləri 914,0 milyon manat və ya 6,6%, qeyri- neft sektorunun gəlirləri isə 475,0 milyon manat və ya 4,1% çox olacaq.

## 1.2. Dövlət büdcəsi gəlirlərinin mənbələr üzrə təhlili

2022-ci il dövlət büdcəsinin ümumi *gəlirlərinin yalnız 47,3%-i*, yaxud 12686,5 mln. manatı *vergilərdən daxilolmalar hesabına formalaşacaq*. Büdcə gəlirlərinin qalan 14129.5 mln. manatını (52,7%-ini) isə digər gəlirlər təşkil edəcək. Əvvəlki illə müqayisədə dövlət büdcəsinin vergi daxilolmalarının 15,8% artması, digər gəlirlər üzrə daxilolmaların isə 2,4% azalması gözlənilir.

*Vergilərdən daxilolmaların strukturu*. Dövlət büdcəsinin vergi daxilolmalarının yarıdan çoxu – 55,2%-i, yaxud 7004,1 mln. manatı mal və xidmətlər üzrə tutulan vergilərin, 32,8%-i, yaxud 4155,0 mln. manatı gəlirlərdən tutulan vergilərin, 9,8%-i, yaxud 1245,4 mln. manatı xarici iqtisadi fəaliyyətlə bağlı vergilərin, qalan 2,2%-i, yaxud 282,0 mln. manatı isə mülkiyyətdən vergilərin payına düşür (*diaqram 5*).

**Diaqram 5: 2022-ci il dövlət büdcəsinin vergi daxilolmalarının strukturu, ümumi yekunda xüsusi çəkisi, faizlə**




Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 saylı qərarı ilə təsdiq edilmiş büdcə gəlirlərinin təsnifatına əsasən mal və xidmətlərə görə vergilərə ƏDV, aksizlər, sadələşdirilmiş vergi, yol vergisi və mədən vergisi aid edilir.

2022-ci il dövlət büdcəsində *ƏDV üzrə daxilolmaların* 5278, 7 mln. manat olması nəzərdə tutulur ki, bunun 2368,7 mln. manatı (44,9%-i) ölkə daxilində mal və xidmətlərə görə, qalan 2910,0 mln. manatı (55,1%-i) isə ölkəyə malların idxalına görə tutulan vergilərdən ibarətdir. Əvvəlki illə müqayisədə 2022-ci ildə ƏDV üzrə daxilolmaların 568,7 mln. manat (yaxud 12,1%) artması proqnozlaşdırılır. Artımın 398,7 mln. manatı ölkə daxilində mal və xidmətlərə görə, qalan 170,0 mln. manatı isə malların idxalına görə ƏDV-nin artması hesabına baş verəcək. Ölkə daxilində mal və xidmətlərə görə ƏDV daxilolmalarının əvvəlki ilin proqnozu ilə müqayisədə 20,2%, malların idxalı üzrə ƏDV daxilolmalarının isə 6,2% artması proqnozlaşdırılır. Maliyyə Nazirliyinin məlumatına əsasən, ölkə daxilində mal və xidmətlərə görə ƏDV-nin 89,0%-i (2107,6 mln. manatı) qeyri-neft sektorundan, 11,0%-i (261.1 mln. manatı) isə neft sektorundan əldə ediləcək. 2021-ci ilin proqnozu ilə müqayisədə ƏDV daxilolmalarının qeyri-neft sektoru üzrə 16,1%, neft sektoru üzrə 68,5% artması nəzərdə tutulur.

2022-ci ilin dövlət büdcəsi gəlirlərində *aksizlərdən daxilolmalar* 1266,8 mln. manat məbləğində proqnozlaşdırılır: bunun 1106,8 mln. manatı (87,4%-i) ölkədə istehsal olunan mallar üzrə aksizlərin, qalan 160,0 mln. manatı isə malların idxalına görə aksizlərin hesabına toplanacaq.

2021-ci ilin proqnozu ilə müqayisədə 2022-ci ildə aksizlər üzrə daxilolmaların 207,8 mln. manat, yaxud 19,5% artması gözlənilir ki, bu da əsasən ölkədə istehsal ediləcək mallara görə aksizlərin hesabına olacaq: belə aksiz daxilolmalarının 217,8 mln. manat (24,5%) artacağı proqnozlaşdırılır. Amma malların idxalına aksizlər üzrə daxilolmaların isə 10,0 mln. manat azalması gözlənilir.

Yeri gəlmişkən, ölkədə istehsal olunan mallar üzrə aksiz daxilolmalarının 567,8 mln. manatı (51,3%-i) neft məhsullarından, 458,0 mln. manatı (41,4%-i) isə tütün məmulatlarından əldə ediləcək. Əvvəlki ilin proqnozu ilə müqayisədə, 2022-ci ildə aksiz daxilolmalarının neft məhsulları üzrə 102,8 mln. manat (22,1%), tütün məmulatları üzrə isə 122,0 mln. manat (36,3%) artması proqnozlaşdırılır. Hər iki məhsul qrupu üzrə natural ifadədə illik istehlak həcmlərində belə artımın mümkünsüz olduğunu nəzərə alsaq, aksiz daxilolmalarındakı böyümənin məhz qiymət artımlarından və aksiz dərəcələrinin artırılmasından qaynaqlandığı məlum olur.

2022-ci ilin dövlət büdcəsində *sadələşdirilmiş vergi üzrə daxilolmalar* 200.0 mln. manat olacaq ki, bu da 2021-ci ilin proqnozu ilə müqayisədə 95,0 mln. manat, yaxud 32,2% faiz azdır.

*Mədən vergisi üzrə daxilolmalar* 142.0 mln. manat proqnozlaşdırılıb ki, bu da 2021-ci ilin proqnozu ilə müqayisədə cəmi 4,0 mln. manat, yaxud 2,9% çoxdur. Mədən vergisinin 69,3 mln. manatı (48,8%-i) xam neft, 65,3 mln. manatı (46,0%-i) isə təbii qaz hasilatından əldə ediləcək.

*Yol vergisi üzrə daxilolmalar* 116,5 mln. manat nəzərdə tutulub ki, bunun 76,5 mln. manatı (65,7%-i) ölkədə istehsal edilən və daxili istehlaka yönəldilən yanacağa görə, o cümlədən 32,5 mln. manatı avtomobil benzini, 33,5 mln. manatı dizel yanacağı və 10,5 mln. manatı maye qaz üzrə tutulur.

2022-ci il dövlət büdcəsi gəlirlərinin 4155,0 mln. manatı (32,8%-i) *gəlirlərdən vergilər* hesabına formalaşacaq. Bu vergilər üzrə büdcə daxilolmalarının 2021-ci ilin proqnozu ilə müqayisədə 861,0 mln. manat, yaxud 26,1% artacağı gözlənilir. Bu artımın 335,0 mln. manatı fiziki şəxslərin gəlir vergisi, 526,0 mln. manatı isə hüquqi şəxslərin mənfəət vergisi üzrə baş tutacaq.

*Fiziki şəxslərin gəlir vergisi* üzrə proqnozlaşdırılan 1485,0 mln. manatlıq daxilolmaların *1340,2 mln. manatı (90,2%-i) muzdlu işlə əlaqədar,* 84,8 mln. manatı (5,7%-i) muzdlu işə aid olmayan fəaliyyətlərdən, qalan 60,0 mln. manatı (4,1%-i) isə fiziki şəxslərin digər gəlirlərindən tutulan gəlir vergisidir.

Muzdlu işlə əlaqədar gəlir vergisi üzrə ümumi daxilolmaların 533,0 mln. manatı, yaxud 39,8%-i büdcə təşkilatlarında çalışanların muzdlu işlə əlaqədar gəlir vergisindən yaranır. Bu qrup muzdlu işçilər üzrə gəlir vergisi daxilolmalarının 2021-ci ilin proqnozu ilə müqayisədə 2022-ci ildə 133,0 mln. manat (yaxud 33.3%) artması proqnozlaşdırılıb ki, bu da muzdlu işlərdən gəlir vergisi üzrə 292,7 mln. manatlıq ümumi artımın 45,4%-ini təşkil edir.

Muzdlu işlə əlaqədar gəlir vergisi üzrə ümumi daxilolmaların 145,0 mln. manatı (10,8%-i) Hasilatın Pay Bölgüsü Sazişləri (HPBS) üzrə podratçı təşkilatlarda, 200,0 mln. manatı (14,9%-i) isə HPBS üzrə yerli və xarici subpodratçı şirkətlərdə muzdlu işlə əlaqədar gəlirlərdən tutulan vergilərdir. Subpodratçı şirkətlərdə muzdlu işlə əlaqədar gəlirlər üzrə gəlir vergisi daxilolmalarında bu il 27,4%-lik artım gözlənilir (*cədvəl 2*).

**Cədvəl 2: 2022-ci il dövlət büdcəsinin gəlirlərində muzdlu işlə əlaqədar gəlir vergisi üzrə daxilolmaların strukturu**

| | Daxil-olmalar, mln. manat | Ümumi yekunda xüsusi çəkisi, % | 2021-ci ilin proqnozu ilə müqayisədə artım (azalma) | |
|---|---|---|---|---|
| | | | **mln. manat** | **faiz** |
| Muzdlu işlə əlaqədar gəlir vergisi üzrə daxilolmalar, cəmi | 1340.2 | 100.0 | 292.7 | 27.9 |
| Neft-qaz sektorunda fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyiciləri üzrə muzdlu gəlirlərdən | 80.0 | 6.0 | 40.00 | 100.0 |
| HPBS üzrə podratçı təşkilatlarda muzdlu işlər üzrə gəlirlərdən | 145.0 | 10.8 | 0.0 | 0.0 |
| HPBS üzrə xarici və yerli subpodratçı təşkilatlarda muzdlu işlər üzrə | 200.0 | 14.9 | 43.0 | 27.4 |
| Büdcə təşkilatlarında işləyən muzdlu işlə əlaqədar gəlirlərdən | 533.0 | 39.8 | 133.0 | 33.3 |
| Dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə muzdlu işlə əlaqədar gəlirlərdən | 100.0 | 7.5 | 40.0 | 66.7 |
| Dövlət müəssisələri üzrə muzdlu işlə əlaqədar gəlirlərdən | 255.2 | 19.0 | 26.2 | 11.4 |
| Digərləri üzrə muzdlu işlə əlaqədar gəlirlərdən | 27.0 | 2.0 | 10.5 | - |

**Mənbə: 2022-ci il dövlət büdcəsi zərfi**

Cədvəl 2-nin məlumatlarından göründüyü kimi, 2022-ci ildə dövlət büdcəsinə səhmlərinin və ya paylarının 51 və daha artıq faizi dövlətə məxsus müəssisələrdə çalışanların muzdlu işlə əlaqədar gəlirləri üzrə 255,2 mln. manat, dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə muzdlu işlə əlaqədar gəlirlərdən isə 100.0 mln. manat gəlir vergisinin daxil olması gözlənilir. Büdcə təşkilatları üzrə olan göstəriciləri də nəzərə alsaq, onda muzdlu işlə əlaqədar gəlir vergisi üzrə bütün daxilolmaların 888,2 mln. manatının, yaxud 66,3%-nin məhz dövlət sektoru üzrə formalaşdığını görürük. Muzdlu işlə əlaqədar gəlir vergisi üzrə daxilolmalarda gözlənilən artımın da 68,1%-i (199,2 mln. manatı) məhz dövlət sektorunun hesabına baş verəcək. Cədvəl 2-nin məlumatları əsasında hesablamaq olar ki, neft-qaz sektorundan və dövlət büdcəsindən kənarda muzdlu işlə əlaqədar gəlirlər üzrə gəlir vergisinin məbləğinin 2022-ci ildə 107,0 mln. manat olması gözlənilir.

*Hüquqi şəxslərin mənfəət vergisi üzrə* büdcə daxilolmalarının məbləğinin 2022-ci ildə 2670,0 mln. manat olması proqnozlaşdırılır. Maliyyə Nazirliyinin məlumatına əsasən, bu məbləğin 1820,0 mln. manatı, yaxud 68,2%-i qeyri-neft sektorunun, 850,0 mln. manatı, yaxud 31,8%-i isə neft sektorunun payına düşür. 2021-ci ilin proqnozu ilə müqayisədə 2022-ci ildə hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmaların 526,0 mln. manat (24,5%) artması gözlənilir. Nazirliyin proqnozuna əsasən, bu artımın 303,0 mln. manatı (57,6%-i) qeyri-neft sektoru, qalan 223,0 mln. manatı isə neft-qaz sektoru üzrə baş tutacaq.

Hüquqi şəxslər üzrə mənfəət vergisindən daxilolmaların 1108,3 mln. manatı, yaxud 41,5%-i rezident hüquqi şəxslərin ödənişləri hesabına təmin ediləcək (*diaqram 6*).

**Diaqram 6: 2022-ci il dövlət büdcəsində hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmaların strukturu**




Bu qrup hüquqi şəxslər üzrə mənfəət vergisi ödənişlərinin əvvəlki ilin proqnozu ilə müqayisədə 140,5 mln. manat (14,5%) artması gözlənilir. Maraqlıdır ki, 2021-ci ilin proqnozu ilə müqayisədə mənfəət vergisi üzrə ödənişlərdə dövlət müəssisələri üzrə hüquqi şəxslər üçün 124,9 mln. manat (yaxud -29,4%) azalma, digər rezident hüquqi şəxslər üzrə isə 261,9 mln. manat, yaxud 48,8% artım proqnozlaşdırılıb.

2022-ci il dövlət büdcəsində *xarici iqtisadi fəaliyyətlə bağlı daxilolmalar* 1245,4 mln. manat olmaqla, büdcənin vergi daxilolmalarının 9,8%-ini təşkil edəcək. Bu qəbildən olan daxilolmalarda 154,4 mln. manat, yaxud 14,2% artımın olması gözlənilir. Bu mənbə üzrə büdcəyə daxil olan vəsaitin 1145,0 mln. manatı, yaxud 91,9%-i idxal rüsumlarından ibarətdir. Bunun 852,0 mln. manatı hüquqi şəxslər və 203,5 mln. manatı fiziki şəxslər tərəfindən ödənilən idxal rüsumu, qalan 89,5 mln. manatı isə idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq olunan gömrük rüsumudur. 2021-ci ilin proqnozu ilə müqayisədə 2022-ci ildə büdcəyə ödəniləcək idxal rüsumunun məbləğinin 200,0 mln. manat, yaxud 14,2% artması gözlənilir. Hüquqi şəxslər üzrə artımın 105,0 mln. manat, fiziki şəxslər üzrə artımın isə 96,5 mln. manat olması proqnozlaşdırılmışdır (yeri gəlmişkən, fiziki şəxslər üzrə idxal rüsumlarının məbləğinin 90,2% artması gözlənilir). İdxal olunan avtonəqliyyat vasitələri üzrə gömrük rüsumlarının isə 1,5 mln. manat azalacağı nəzərdə tutulur.

*Digər gəlirlər*. Dövlət büdcəsinin belə gəlirlərinə mülkiyyətdən gəlirlər, mal və xidmətlərin satışından daxilolmalar, habelə cərimə və sanksiyalar üzrə daxilolmalar aiddir. Yuxarıda qeyd etdiyimiz kimi, 2020-ci ildə dövlət büdcəsinin *vergi olmayan gəlirləri* 14129,5 mln. manat təşkil edəcək. Bu daxilolmaların 12847,9 mln. manatı, yaxud 90,9%-i *mülkiyyətdən gəlirlərə* aiddir. Buraya faizlər və dividendlər üzrə gəlirlər, dövlət mülkiyyəti obyektlərindən icarə haqları, büdcədənkənar fondlardan edilən transfertlər və s. aiddir. Burada ən böyük mənbə

ARDNF-nin transfertidir - 12710,0 mln. manat (vergi olmayan gəlirlərin 90,0%-i bunun payına düşür).

2022-ci ildə *dividendlər üzrə büdcəyə daxilolmaların* 106,5 mln. manat olması proqnozlaşdırılır ki, bu da 2021-ci ilin proqnozu ilə müqayisədə 61,55 mln. manat, yaxud 36,6% azdır.

Dövlət büdcəsinin vergi olmayan gəlirlərinin daha bir mənbəyi *mal və xidmətlərin satışından daxilolmalardır* – 2022-ci il dövlət büdcəsində belə gəlirlərin məbləği 1229,3 mln. manat, əvvəlki illə müqayisədə artım isə 323,6 mln. manat, yaxud 35,7% olacaq. Bu gəlirlər əsasən dövlət rüsumları, büdcə təşkilatlarının ödənişli xidmətləri və qeyri-kommersiya təşkilatlarının kommersiya fəaliyyətindən gəlirləri hesabına formalaşır.

2022-ci il dövlət büdcəsinə *dövlət rüsumu* hesabına 363,5 mln. manat vəsait daxil olması proqnozlaşdırılır ki, bu da əvvəlki ilin proqnozu ilə müqayisədə 193,5 mln. manat, yaxud 113,2% çoxdur. Dövlət rüsumu üzrə daxilolmaların 2 dəfədən çox artması Dövlət rüsumu haqqında Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi və rüsumların məbləğinin artırılması ilə bağlıdır.

2022-ci ildə *büdcə təşkilatlarının ödənişli xidmətlərindən, maliyyə sanksiyalarından və s. daxilolmaların* məbləği 760,0 mln. manat ola bilər. Bu vəsaitin 388,5 mln. manatı (51,1%-i) maliyyə sanksiyalarının, inzibati cərimələrin, vergilərin və dövlət rüsumlarının qanunvericiliklə büdcədənkənar gəlirlərə aid edilən hissəsindən daxilolmalar təşkil edir. O cümlədən, vergi orqanları tərəfindən tətbiq edilən maliyyə sanksiyalarının qanunvericiliklə büdcədənkənar gəlirlərə aid edilən hissəsindən daxilolmaların 284,7 mln. manat olması proqnozlaşdırılır ki, bu da 2021-ci ilin proqnozu ilə müqayisədə 84,8 mln. manat, yaxud 42,4% çoxdur.

Nəhayət, 2022-ci il dövlət büdcəsində *cərimə və sanksiyalar üzrə daxilolmaların* 52,3 mln. manat olması proqnozlaşdırılmışdır ki, bunun da 20,1 mln. manatı (38,4%-i) vergi qanunvericiliyinin pozulmasına görə daxilolmalardan ibarətdir. 2021-ci ilin proqnozu ilə müqayisədə 2022-ci ildə cərimə və sanksiyalar üzrə daxilolmalar 74,3%-lik, yaxud 22,3 mln. manatlıq artımla proqnozlaşdırılmışdır.

# 2. Dövlət büdcəsinin qeyri-neft daxilolmalarının büdcənin cari xərcləri ilə müqayisəsi

Yuxarıda artıq vurğuladığımız kimi, 2022-ci ildə dövlət büdcəsinin qeyri-neft sektoru üzrə daxilolmalarının məbləği 12126,0 mln. manat olacaq. Maliyyə Nazirliyinin məlumatına əsasən, 2022-ci ildə dövlət büdcəsinin cari xərcləri 20062,2 mln. manat təşkil edəcək. Bu isə o deməkdir ki, dövlət büdcəsinin qeyri-neft gəlirləri büdcənin cari xərclərinin 60,4%-ni qarşılaya biləcək. ARDNF-nin transferti nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri (14106,0 mln. manat) isə büdcənin cari xərclərinin 70,3%-i qədər olacaq.

Dövlət büdcəsinin cari xərcləri ilə yanaşı dövlət borcu üzrə xərcləri (1792,0 mln. manat) də nəzərə alınarsa, onda ARDNF-nin transferti nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri həmin xərclərin 64,5%-ni qarşılamaq iqtidarında ola bilər.

## 2.1. 2022-ci il dövlət büdcəsi xərclərinin təhlili

2022-ci ilin dövlət büdcəsi xərcləri 29 879 mln. manat təsdiqləndi ki, bu əvvəlki ilin göstəricisindən 1336 mln. manat və ya 4,7% çoxdur. Xərclərin məbləğində baş verən dəyişikliklər ayrı-ayrı funksional bölmələr üzrə fərqli olub.

### *2.1.1. Xərclərin funksional strukturunun qısa icmalı*

Əvvəlki illə müqayisədə ən yüksək artım səhiyyədə baş verib. 2022-ci ildə səhiyyə xərcləri 1788,6 mln. manat səviyyəsində təsdiqlənib. Bu, 2021-ci ilə nisbətən 379,6 mln. manat, yaxud 26,9% çoxdur.

**Diaqram 7: Büdcə xərclərinin strukturu, 2021-2022-ci illər üzrə müqayisəli, min manatla**




Təhsil xərcləri 18,5% və ya 606,7 mln. manat artımla proqnozlaşdırılıb. 2022-ci ilin dövlət büdcəsində təhsil üçün 3884,3 mln. manat vəsait nəzərdə tutulub.

Məhkəmə və hüquq-mühafizə xərcləri üzrə 339,8 mln. manat (16.2%) artım nəzərdə tutulur və xərclərin ümumi məbləği 2432,6 mln. manat təsdiqlənib. Öz növbəsində, nəqliyyat və rabitə xərcləri 232,9 mln. manat (24,1 mln. manat və ya 11,6% artımla), mədəniyyət və incəsənət xərcləri 460,4 mln. manat (42,3 mln. manat, yaxud 10,1% artımla), kənd təsərrüfatı xərcləri 997,3 mln. manat (54,3 mln. manat və ya 5,8% artımla), ekologiya xərcləri 286,2 mln. manat (10,7 mln. manat, yaxud 3,9% artımla), dövlət idarəetmə xərcləri 4265,5 mln. manat (105,7 mln. manat və ya 2,5% artımla) məbləğində nəzərdə tutulur.

İşğaldan azad edilmiş ərazilərin bərpası üçün xərclər əvvəlki ildə olduğu qədər təsdiqlənib – 2200 mln. manat. Yerdə qalan xərclərdə azalma nəzərdə tutulur. Məsələn, bölmələrə aid edilməyən xidmət xərcləri 1417,4 mln. manat (60,7 mln. manat və ya 4,1% azalma ilə), müdafiə və milli təhlükəsizlik xərcləri 4489,9 mln. manat (95,9 mln. manat, yaxud 2,1% azalma), investisiya xərcləri 2789,8 mln. manat (45,2 mln. manat və ya 1,6% azalma ilə), sosial müdafiə xərcləri 3642,6 mln. manat (50,1 mln. manat, yaxud 1,4% azalma ilə) məbləğində təsdiq olunub.

### *2.1.2. Hökumətin xərc prioritetlərində dəyişikliklər*

Son illər üzrə dövlət büdcəsinin təhlili göstərir ki, hökumətin xərc prioritetlərində kəskin dəyişikliklər müşahidə edilmir. Məsələn, həm 2021-ci ildə, həm də 2022-ci ildə müdafiə və milli təhlükəsizlik xərcləri dövlət büdcəsində ən yüksək payla ilk sırada dayanır. Doğrudur, əvvəlki ilə nisbətən cari ildə bu xərclərin payı bir qədər azalıb (16,1%-dən 15%-ə enib). Lakin bu azalma müdafiə xərclərinin büdcədə ilk sıradakı yerinə təsir göstərməyib.

**Diaqram 8: Ayrı-ayrı xərclərin büdcədə payı, faizlə**




Ümumdövlət xidməti xərcləri hər 2 il üzrə büdcədə payına görə 2-ci sırada dayanıb və bölmə üzrə xərclərin büdcədə xüsusi çəkisi göstərilən illər üzrə 14,3-14,6% səviyyəsində olub.

Təhsil xərclərinin büdcədə payı 11,5%-dən 13%-ə, xərc reytinqində mövqeyi isə 4-cü yerdən 3-cü yerə yüksəlib. 2021-2022-ci illərdə büdcə xərclərində ən yüksək paya malik 5 funksional istiqamət isə dəyişməz qalıb. Belə ki, müdafiə, dövlət idarəetməsi və təhsillə yanaşı

sosial müdafiə və investisiya xərcləri büdcənin ən böyük 5 xərc istiqaməti kimi qalır. 2022-ci ildə sosial müdafiəyə 12,2% (2021-ci ildə 12,9%), investisiyalara isə 9,3% (2021-ci ildə 9,9%) büdcədən pay düşəcək. İlk 5-liyə daxil bu xərclər ümumi büdcə xərclərinin təxminən üçdə ikisini təşkil edəcək.

### *2.1.3. Xərclərin funksional istiqamətlər üzrə detallı icmalı*

2022-ci ildə dövlət büdcəsindən ən yüksək məbləğdə vəsait ölkənin müdafiəsinin və milli təhlükəsizliyinin təmin edilməsi üçün ayrılacaq. Həmin funksional istiqamət üzrə xərclərin həcmi 4489,6 mln. manat səviyyəsində təsdiqlənib.

Cari ildə dövlət büdcəsindən ayrılacaq xərclər sırasında müdafiə xərclərindən sonra ən böyük pay ümumdövlət xidməti xərclərinin təyinatı xeyli rəngarəngdir. Bu xərclərin 42%-i və ya 1792 mln. manatı dövlət borcunun ödənməsinə sərf olunacaq. Dövlət borcu xərcləri əvvəlki illə müqayisədə 2022-ci ildə 406,7 mln. manat (18,5%) azalıb.

**Diaqram 9: Ümumdövlət xərclərinin strukturu və istiqamətlər üzrə məbləği, mln. manatla**




Elm xərcləri 202,8 mln. manat təsdiqlənib və bu əvvəlki ilə nisbətən 19,5 mln. manat və ya 10,6% çoxdur. Büdcələrarası transfertlərə 438,2 mln. manat ayrılacaq (əvvəlki illə müqayisədə 53,7 mln. manat, yaxud 14% çox). Transfertlərin əsas hissəsi – 431,6 mln. manatı və ya 98,4%-i Naxçıvan Muxtar Respublikasına ayrılacaq. Həmin transfertlərin həcmi 2021-ci illə müqayisədə 53,5 mln. manat (14,1%) artırılıb. Bələdiyyələrə 6,6 mln. manat büdcə transferti təqdim ediləcək ki, həmin məbləğin 1,3 mln. manatı məqsədli (subvensiya) maliyyə yardımı kimi nəzərdə tutulur.

Ümumdövlət xidməti xərclərinin 1437,7 mln. manatı bilavasitə dövlət idarəetmə orqanlarının saxlanması üçün nəzərdə tutulub. Bu, 2021-ci ilə nisbətən 375,2 mln. manat və ya 35,3% çoxdur. Cari ildə bu xərclər çərçivəsində 60-a yaxın ali dövlət orqanı (Prezident Aparatı, Nazirlər Kabineti, parlament, nazirlik, komitə və dövlət agentlikləri və s.) ilə yanaşı yerli icra hakimiyyəti orqanlarının saxlanması təmin ediləcək.

2022-ci ildə məhkəmə və hüquq mühafizə orqanlarının saxlanması üçün 2432,6 mln. manat xərclənməsi nəzərdə tutulur. Bu, əvvəlki ilin göstəricisindən 339,8 mln. manat (16.2%) çoxdur.

**Diaqram 10: Hüquq-mühafizə bölməsi üzrə xərclərin istiqamətləri, mln. manatla**




Məhkəmə hakimiyyəti xərcləri bölmə üzrə ümumi xərclərin 4,7%-ni təşkil edir və 114,7 mln. manat səviyyəsində proqnozlaşdırılıb. Məhkəmələrin saxlanması xərcləri əvvəlki ilə nisbətən 14,8 mln. manat və ya 13,5% artacaq.

Prokurorluq orqanlarının saxlanması üçün 102,7 mln. manat nəzərdə tutulur və bu bölmə üzrə xərclərin 4,2%-nə bərabərdir. Əvvəlki ilə nisbətən prokurorluq orqanlarının saxlanması xərcləri 3,5 mln. manat (3,2%) artıb.

Bölmə xərclərinin əhəmiyyətli hissəsi (72,2%) hüquq mühafizə qurumlarının saxlanmasına yönəldiləcək. Həmin xərclərin ümumi məbləği 1756,3 mln. manatdır ki, bu, 2021-ci illə müqayisədə 166,7 mln. manat (10,5%) çoxdur. Hüquq mühafizə xərcləri kifayət qədər çoxlu sayda qurumlar arasında bölüşdürülür. Bu qurumlara daxildir: daxil işlər və ədliyyə orqanları, Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti və s.

Büdcənin əsas xərc istiqamətlərindən biri olan təhsilə 2022-ci ildə 3884,3 mln. manat ayrılacaq. Bu, əvvəlki ilə nisbətən 606,7 mln. manat və ya 18,5% çoxdur.

**Diaqram 11: Təhsil xərclərinin istiqamətlər üzrə məbləği, mln. manatla**



Təhsil xərclərinin əsas hissəsi orta təhsilin maliyyələşdirilməsi üçün nəzərdə tutulur. 2022-ci ildə ümumi təhsilə 2089,9 mln. manat və ya cəmi bölmə xərclərinin 54%-i qədər vəsait ayrılacaq. Bu, əvvəlki ilə nisbətən 325,2 mln. manat (18,4%) çoxdur. Peşə və orta ixtisas təhsilinə birlikdə 151,1 mln. manat ayrılıb ki, bu da 2021-ci illə müqayisədə 30 mln. manat, yaxud 24,7% yüksəkdir.

Cari ildə ali təhsil xərcləri 457,3 mln. manat səviyyəsində təsdiqlənib (ötən illə müqayisədə 82,7 mln. manat və ya 22% çox). 2022-ci ildə ali təhsil xərclərinin 397,3 mln. manatı Nazirlər Kabinetinin 25 iyun 2010-cu il tarixli 120 saylı qərarına uyğun olaraq yeni maliyyələşdirmə mexanizminin tətbiqi üçün tələbəhesabı xərc kimi ayrılır. Həmin xərclərin 138,4 mln. manatı tələbə təqaüdlərinin ödənilməsinə sərf olunacaq ki, bu əvvəlki ildən 43 mln. manat çoxdur.

Cari ildə ölkədə səhiyyə sisteminin maliyyələşdirilməsi üçün 1788,6 mln. manat xərclənəcək. Həmin məbləğin əsas hissəsi - 1125,6 mln. manatı və ya 63 %-i icbari tibbi sığorta sisteminin tətbiqilə bağlı xərclərin ödənilməsi üçün nəzərdə tutulub. Bu, əvvəlki ilin göstəricisindən 101,8 mln. manat (10%) çoxdur. Səhiyyə bölməsi çərçivəsində bir sıra proqramların maliyyələşdirilməsi də nəzərdə tutulur. Məsələn, şəkərli diabet proqramına 48 mln. manat, qan xəstəliklərilə əlaqədar müvafiq proqramlara 8,4 mln. manat, xroniki böyrək çatışmazlığı ilə bağlı proqrama 38,3 mln. manat, talassemiya ilə mübarizə proqramına 22,6 mln. manat, hemofiliya xəstəliyilə mübarizə üzrə proqrama 12,8 mln. manat, vərəmlə mübarizə proqramına 2,2 mln. manat, dağınıq skleroz xəstəliyi ilə mübarizə proqramına 3,7 mln. manat, ana və uşaqların sağlamlığının yaxşılaşdırılması proqramına 3,1 mln. manat ayrılması nəzərdə tutulur.

Büdcənin ən böyük xərc bölmələrindən biri olan sosial müdafiə və təminata 2022-ci ildə 3565,8 mln. manat ayrılacaq. Bu, əvvəlki ilə nisbətən 50,1 mln. manat və ya 1,4% azdır. Sosial müdafiə xərclərində azalma əsasən dövlət büdcəsindən Sosial Müdafiə Fonduna transfertin kəskin azaldılması ilə bağlıdır. Belə ki, 2022-ci ildə Fonda büdcədən transfertin həcmi 1145,9 mln. manat proqnozlaşdırılıb ki, bu əvvəlki ilə nisbətən 453 mln. manat və ya 28,3% azdır. Azalmaya səbəb həm Sosial Müdafiə Fondunun əvvəlki dövrlərdən xərclənməmiş vəsaitlərinin qalması, həm də maaşların və digər sosial sığorta ödənişlərinin gözlənilən artımı ilə bağlı Fondun öz gəlir bazasının genişləndirilməsi istiqamətində proqnozların mövcudluğudur. Fonda ayırma dövlət büdcəsinin sosial müdafiə bölməsi üzrə ümumi xərclərin 32,1%-ni təşkil edəcək.

Sosial Müdafiə Fonduna transfert nəzərə alınmazsa, sosial müdafiə sisteminin əsas istiqamətləri üzrə xərclərin artımı nəzərdə tutulur.

2022-ci ildə təqaüd və müavinətlərin ödənilməsi üzrə xərclərin birlikdə məbləği 1252,8 mln. manat proqnozlaşdırılır ki, bu əvvəlki ilə nisbətən 213,9 mln. manat (20,6%) çoxdur. Bu maddələr üzrə xərclər cəmi sosial müdafiə xərclərinin 35,1%-ni təşkil edir.

Məcburi köçkünlərin sosial müdafiəsi xərcləri 367,3 mln. manat təsdiqlənib (ötən illə müqayisədə 10 mln. manat, yaxud 2,8% çox).

**Diaqram 12: Sosial müdafiə xərclərinin istiqamətlər üzrə bölgüsü, mln. manatla**




2022-ci ildə sosial müdafiə xərcləri çərçivəsində ünvanlı sosial yardımlar üçün 277,7 mln. manat (ötən illə müqayisədə 25,5 mln. manat və ya 10,1% çox), aztəminatlı ailələrin uşaqları və uşaqların doğulması üçün müavinətlərə 27,3 mln. manat (əvvəlki ilə nisbətən 0,7% və ya 0,2 mln. manat az), işsiz vətəndaşlar üçün haqqı ödənilən ictimai işlərin təşkilinə 272 mln. manat (ötən illə müqayisədə 116 mln. manat, yaxud 74,4% çox) yönəldilməsi nəzərdə tutulur.

2022-ci ildə dövlət büdcəsindən mədəniyyət, incəsənət və idman tədbirlərinin maliyyələşdirilməsinə 460,5 mln. manat ayrılması nəzərdə tutulur. Bu, əvvəlki ilə nisbətən 42,3 mln. manat, yaxud 10% çoxdur.

**Diaqram 13: Mədəniyyət, incəsənət və idman bölməsi üzrə xərclərin istiqamətlər üzrə həcmi, mln. manatla**



Bölmə üzrə xərclərdən 177,5 mln. manat mədəniyyət və incəsənət tədbirlərinin maliyyələşdirilməsinə yönəldiləcək. Bu xərclər əsasən 3 istiqamətə - kitabxanaların, muzeylərin və mədəniyyət müəssisələrinin (klublar, mədəniyyət sarayları, teatrlar, musiqi kollektivləri) saxlanması üçün nəzərdə tutulur.

Teleradio və mətbuat üzrə 54,1 mln. manat məbləğində xərclərin əsas hissəsi – 34,2 mln. manatı *Azərbaycan Teleradio* QSC-nin, 17,1 mln. manatı İctimai Teleradio Yayımları Şirkətinin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Əlavə olaraq, bu istiqamət üzrə *Azərbaycan* Nəşriyyatının saxlanmasına 1,9 mln. manat, *Mir* Dövlətlərarası yayımına 619 min manat ayrılacaq.

*Digər mədəniyyət və incəsənət* istiqaməti üzrə 185 mln. manat vəsaitin təyinatı isə kifayət qədər genişdir. Məsələn, 33,2 mln. manat Mədəniyyət Nazirliyi sistemində əməkhaqlarının artımı üçün nəzərdə tutulub. Bundan başqa Muğam Mərkəzinin saxlanması üçün 1,5 mln. manat, qeyri-dövlət təşkilatları üçün 6,4 mln. manat, Beynəlxalq Multikulturalizm Mərkəzinə 1,3 mln. manat, Heydər Əliyev Mərkəzi üçün 11,4 mln. manat, siyasi partiyaların maliyyələşdirilməsinə 5 mln. manat, mədəniyyət və incəsənət (habelə idman) sahəsində publik hüquqi şəxslər üçün 51,9 mln. manat nəzərdə tutulub.

2022-ci ildə dövlət büdcəsindən mənzil-kommunal sektoruna 266,8 mln. manat (əvvəlki illə müqayisədə 3,9 mln. manat və ya 1,5% artımla) ayrılması nəzərdə tutulur. Bölmə üzrə xərclərin 43,8 mln. manatı mənzil təsərrüfatı xərci kimi yerli icra hakimiyyətlərinə ayrılacaq. Həmin vəsaitin 5,9 mln. manatı mənzil-istismar müəssisələrinin subsidiyalaşdırılması, 37,9 mln. manatı isə yaşayış binalarının əsaslı təmiri üçün nəzərdə tutulub.

Kommunal təsərrüfat üzrə xərclər 112,9 mln. manat nəzərdə tutulur. Bu vəsaitlərin 6,9 mln. manatı abadlaşdırma xidmətləri üçün Ekologiya Nazirliyinə, eyni məqsədlə 327,5 min manatı Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə, işıqlandırma tədbirlərilə bağlı 64,5 mln. manatı yerli icra hakimiyyətlərinə, 41,1 mln. manatı isə *Azəristiliktəchizat* ASC-nin subsidiyalaşdırılmasına yönəldiləcək.

Bölmə xərcləri çərçivəsində su təsərrüfatının xərclərinin qarşılanması məqsədilə *Azərsu* ASC-yə 10 mln. manat, Fövqəladə Hallar Nazirliyinə 4,5 mln. manat ayrılması nəzərdə tutulub.

Mənzil və kommunal təsərrüfatı bölməsi üzrə vəsaitlərin 90,2 mln. manatı *digər xidmət xərcləri* kimi əks etdirilib. Bu çərçivədə Qaçqın və Məcburi Köçkünlər Komitəsinə 3,1 mln. manat, yerli icra hakimiyyəti orqanlarına 35,6 mln. manat, mənzil və kommunal təsərrüfatı müəssisələrinin subsidiyalaşdırılması üçün 34,6 mln. manat, bu sektorda fəaliyyət göstərən publik hüquqi şəxslərə maliyyə yardımı üçün 16,6 mln. manat nəzərdə tutulub.

2022-ci ildə dövlət büdcəsindən kənd təsərrüfatına 997,3 mln. manat ayrılacaq. Bu, əvvəlki illə müqayisədə 54,3 mln. manat (5,8%) çoxdur.

2022-ci ildə bölmə üzrə xərclərin 477,5 mln. manatının kənd təsərrüfatı tədbirlərinin, 459,7 mln. manatının isə meliorasiya sisteminin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulub. Subsidiya xərclərində artım böyük deyil (təxminən 10 mln. manat və 2,2%). Lakin meliorasiya xərcləri 54 mln. manat (13,2%), baytarlıq xərcləri isə 15,9 mln. manat (53,9%) artımla proqnozlaşdırılıb.

**Diaqram 14: Kənd təsərrüfatı xərclərinin istiqamətləri, mln. manatla**




Cari il üçün dövlət büdcəsində investisiya xərcləri 4989,8 mln. manat nəzərdə tutulub ki, ondan 2200 mln. manatı işğaldan azad edilmiş ərazilərin bərpası, 2789,8 mln. manatı isə işğalın nəticələrinin aradan qaldırılması ilə bağlı layihələr nəzərə alınmadan iqtisadiyyat üzrə digər investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldiləcək. Dövlət büdcəsinin investisiya təyinatlı xərcləri əvvəlki ilə nisbətən 45,2 mln. manat (1,6%) azdır. İşğalın nəticələrinin aradan qaldırılması ilə bağlı bərpa, təmir və tikinti xərclərinin səviyyəsi dəyişməyib və ötən il də 2200 mln. manat səviyyəsində idi. Azalma digər investisiya layihələri üzrə baş verib.

2022-ci ildə dövlət büdcəsindən ətraf mühitin qorunması üçün 286,2 mln. manat ayrılması nəzərdə tutulur. Bu, əvvəlki illə müqayisədə 10,7 mln. manat (3,9%) çoxdur. Cari ildə bölmə üzrə xərclərdən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə bir neçə istiqamət üzrə vəsait ayrılacaq. Məsələn, 7,7 mln. manatı bioloji zənginliyin qorunmasına, 10,9 mln. manat hidrometeoroloji tədbirlərə, 3,8 mln. manat meşə təsərrüfatına, 1,4 mln. manat balıqçılıq və ovçuluq təsərrüfatına xərclənəcək. Bunlardan əlavə, bölmə xərcləri çərçivəsində ərazilərin təmizlənməsi və çirkab suların yığılması məqsədilə 248,9 mln. manat ayrılması nəzərdə tutulur. Ötən il bu məqsədlə 232,8 mln. manat və ya 6,9% az vəsait proqnozlaşdırılmışdır. Cari ildə qeyd olunan məqsəd üzrə nəzərdə tutulan vəsaitin 9,2 mln. manatı Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Komitə, 202 mln. manatı yerli icra hakimiyyətləri, 33 mln. manatı *Təmiz şəhər* ASC vasitəsilə xərclənəcək.

Nəqliyyat və rabitə xərcləri 232,9 mln. manat səviyyəsində təsdiqlənib. Bu, əvvəlki ilin göstəricisindən 24,2 mln. manat və ya 11,6% çoxdur.

Bölmə üzrə xərclər əsasən nəqliyyat və rabitə sahəsində fəaliyyət göstərən dövlət şirkətlərinə subsidiyaların verilməsilə bağlıdır. Məsələn, Azərbaycan Hava Yolları (AZAL) şirkəti 10,0 mln. manat (əvvəlki il olduğu qədər), *Azərkosmos* ASC 23 mln. manat (əvvəlki ilə nisbətən 4,4 mln. manat az), Bakı Metropoliteni 51,9 mln. manat (əvvəlki ilə nisbətən 12,7 mln. manat çox), nəqliyyat və rabitə sahəsində fəaliyyət göstərən publik hüquqi şəxslər 46,9 mln. manat (əvvəlki ilə nisbətən 4,2 mln. manat az) büdcə dəstəyi alacaqlar. Bunlardan əlavə, 2022-ci ildə *Avtomobil yolları* köməkçi bölməsi çərçivəsində 59,1 mln. manat xərclənməsi nəzərdə tutulur. Həmin vəsaitin 43,2 mln. manatına yerli icra hakmiyyətləri, yerdə qalan 15,9 mln. manatına isə bir neçə dövlət qurumu (məsələn, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və s.) sərəncam verəcək.

**Diaqram 15: Nəqliyyat və rabitə xərclərinin bölgüsü, mln. manatla**




2022-ci ildə dövlət büdcəsindən *İqtisadi və Kommersiya* fəaliyyəti köməkçi bölməsi çərçivəsində 56,1 mln. manat xərclənməsi nəzərdə tutulur ki, bu 2021-ci ilə nisbətən 0,7 mln. manat çoxdur. Qeyd olunan xərclər bütünlüklə ölkədə turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsi üzrə tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Bölmə üzrə xərclərin sərəncamçısı kimi Dövlət Turizm Agentliyi çıxış edir.

*İqtisadi fəaliyyət* bölməsi çərçivəsində 2022-ci ildə fərqli iqtisadi fəaliyyətlərin maliyyələşdilməsi üçün *digər xərclər* maddəsi altında 656,4 mln. manat ayrılıb. Bu, əvvəlki illə müqayisədə 28,1 mln. manat və ya 4,5% çoxdur. Həmin xərclər çərçivəsində İpoteka və Kredit Zəmanət Fonduna 100 mln. manat (ötən il 87,5 mln. manat), sosial-iqtisadi tədbirlərin maliyyələşdirilməsinə 214 mln. manat, qeyri-neft ixracının təşviqi üçün 11,3 mln. manat, iqtisadi tədbirlərin dəstəklənməsi üçün 140 mln. manat (əvvəlki il 288,2 mln. manat), publik hüquqi şəxslərə büdcə dəstəyi üçün 63,9 mln. manat (əvvəlki il 46,5 mln. manat), İnvestisiya Holdinqə 13 mln. manat nəzərdə tutulub.

Nəhayət, cari ilin büdcəsində aparıcı xərc bölmələrindən biri olan *Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə xərclər* bölməsi çərçivəsində 1417,4 mln. manat vəsait nəzərdə tutulur. Bu, əvvəlki ilin proqnoz göstəricisindən 60,7 mln. manat və ya 4,1% azdır. Bu bölmə üzrə də xərclərin təyinatı xeyli fərqlidir, amma əsas hissəsi müxtəlif büdcə fondlarının və sosial iqtisadi tədbirlərin maliyyələşdirilməsinə yönəldilir.

**Diaqram 16. İqtisadi fəaliyyətlə bağlı bəzi istiqmətlər üzrə xərclər, mln. manatla**




2022-ci ildə Prezidentin Ehtiyat Fonduna 518 mln. manat ayrılacaq ki, bu əvvəlki ilə nisbətən 43 mln. manat və ya 9% çoxdur. Nazirlər Kabinetinin Ehtiyat Fonduna isə 2021-ci ildə olduğu qədər – 110 mln. manat ayrılıb.

Büdcədən məqsədli büdcə fondları üçün 309,8 mln. manat yönəldiləcək - əvvəlki ilə nisbətən 29,8 mln. manat (10,3%) çoxdur. Həmin vəsaitin əsas hissəsi – 300 mln. manatı *Avtomobil yolları* Məqsədli Büdcə Fondu üçün nəzərdə tutulub. Bundan əlavə *Meşələrin Qorunması*, *Ətraf Mühitin Mühafizəsi* kimi bir neçə məqsədli büdcə fonduna, ümumilikdə, 9,8 mln. manat vəsait ayrılıb.

Bölmə çərçivəsində 2022-ci ildə təhlükəsizlik və sosial iqtisadi tədbirlərin maliyyələşdirilməsinə 398,5 mln. manat (2021-ci ildə 161 mln. manat) ayrılıb. Lakin büdcə sənədlərində həmin vəsaitin konkret hansı layihə və tədbirlər üçün xərclənəcəyi ilə bağlı əlavə hər hansı məlumat əks olunmayıb.

### *2.1.4. 2022-ci il üzrə büdcə xərclərinin iqtisadi strukturu*

Büdcə xərclərinin iqtisadi bölgüsü xərclərin son təyinatını ifadə edir. Yəni bu təsnifat üzrə məlumatlara baxdıqda ayrıca götürülmüş hər bir funksional bölmə, köməkçi bölmə və paraqraflar üzrə vəsaitlər əmək haqqı, pensiya və sosial müavinətlər, maliyyə aktivləri, borclar, əsaslı və cari tikinti, kommunal (elektrik enerjisi, təbii qaz, su istehlakı) üzrə xərclərin məbləğini görmək mümkün olur.

**Cədvəl 3: Büdcə xərclərinin iqtisadi maddələr üzrə bölgüsü, mln. manatla**

| *İllər/xərc maddələri* | *2022* | *2021* | 2022-ci ildə artıb, azalıb | |
|---|---|---|---|---|
| | | | ***mln. manatla*** | ***%-lə*** |
| Əməyin ödənişi | 8097,3 | 6592,3 | 1505 | 22,8 |
| Yanacaq-sürtkü materialları | 134,7 | 114,8 | 19,9 | 17,3 |
| Dərman və sarğı materialları | 102,5 | 174,3 | -71,8 | -41,2 |
| Yumşaq inventar | 215,8 | 194,3 | 21,5 | 11,1 |

| | | | | |
|---|---|---|---|---|
| Ərzaq məhsulları | 466 | 441,9 | 24,1 | 5,5 |
| Cari təmir | 163,7 | 145,5 | 18,2 | 12,5 |
| Kommunal xidmətlər | 445,8 | 377 | 68,8 | 18,2 |
| Rabitə xidmətləri | 75,6 | 75,8 | -0,2 | -0,3 |
| Əsas fondların və aktivlərin icarəsi və mühafizəsi | 213,4 | 188,9 | 24,5 | 13,0 |
| Əsas fondların və aktivlərin saxlanması | 32,3 | 27,6 | 4,7 | 17,0 |
| Ezamiyyə xərcləri | 67,2 | 56,1 | 11,1 | 19,8 |
| Bank xərcləri | 44,3 | 39,3 | 5 | 12,7 |
| Beynəlxalq tədbir və görüşlərin təşkili | 228,8 | 107,5 | 121,3 | 112,8 |
| Faizlər və ödənişlər | 632,3 | 625,8 | 6,5 | 1,0 |
| Subsidiyalar | 1440,2 | 1645,1 | -204,9 | -12,5 |
| Dotasiya | 436,9 | 383,2 | 53,7 | 14,0 |
| Sosial ödənişlər | 3674,1 | 3752,2 | -78,1 | -2,1 |
| Qeyri-maliyyə aktivləri | 8024,8 | 8330,3 | -305,5 | -3,7 |
| Öhdəliklər üzrə əməliyyatlar | 1167,7 | 1570,7 | -403 | -25,7 |

2022-ci ildə dövlət büdcəsinin məcmu xərcləri 4,7% artsa da, iqtisadi maddələr üzrə artım dinamikası çox fərqli olub. Məsələn, əmək ödənişi xərcləri 1505 mln. manat və ya 22,8%, beynəlxalq tədbir və görüşlərin təşkili xərcləri 121,3 mln. manat (112,8%), kommunal xidmət xərcləri 68,8 mln. manat (18,2%), dotasiyalar 53,7 mln. manat (14%) artdığı halda, öhdəliklər üzrə əməliyyatlar 403 mln. manat (25,7%), qeyri-maliyyə aktivləri üzrə xərclər 305,5 mln. manat (3,7%) azalıb.

2022-ci ildə dövlət büdcəsində nəzərdə tutulan əmək ödənişi fondunun ayrı-ayrı sahələr arasında bölüşdürülməsi də ictimaiyyəti maraqlandıran məlumatlardan biridir. Hökumətin parlamentə təqdim etdiyi 2022-ci il üzrə büdcə zərfinə görə, cari ildə ümumi əmək ödənişi xərclərinin 2707,1 mln. manatı, yaxud 33,4%-i təhsil sisteminə, 1678,7 mln. manatı və ya 20,8%-i məhkəmə, hüquq mühafizə və prokurorluq orqanlarına, 1052,2 mln. manatı, yaxud 12,3%-i dövlət idarəetmə sisteminə (qanunverici və icra hakimiyyəti sistemi), 152,8 mln. manatı və ya 1,9%-i səhiyyə sisteminə, 145,4 mln. manatı, yaxud 1,8%-i elmi sferaya, yerdə qalan 2361,1 mln. manatı (29,1%-i) isə digər büdcə təşkilatlarına yönəldiləcək.

# 3. Büdcədənkənar dövlət fondları

*Büdcə sistemi haqqında* Qanuna görə, büdcədənkənar dövlət fondları dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondlarıdır. Hazırda Azərbaycan Respublikasında üç büdcədənkənar dövlət fondları – Dövlət Neft Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondu fəaliyyət göstərir. Büdcədənkənar dövlət fondları büdcə sisteminin tərkib hissəsidir və onların gəlir və xərcləri icmal büdcədə əksini tapır. Büdcədənkənar dövlət fondlarının illik büdcələri hər il parlament tərəfindən təsdiq edilir.

Büdcədənkənar dövlət fondları təyinatından asılı olaraq dövlət büdcəsinin gəlir mənbəyini və ya xərc istiqamətini təşkil edir. Dövlət Neft Fondu dövlət büdcəsinin ən böyük gəlir mənbəyidir. 2022-ci ildə dövlət büdcəsi gəlirlərinin 47,4%-i Dövlət Neft Fondundan edilmiş transfertlər hesabına formalaşacaq. Dövlət Sosial Müdafiə Fondu dövlət büdcəsinin xərc istiqamətini təşkil edir. DSMF-nin büdcəsinin balanslaşdırılması məqsədilə cari ildə dövlət büdcəsindən 1,146 milyard manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulur. Bu, dövlət büdcəsi xərclərinin 3,8%-nə bərabərdir. Dövlət büdcəsindən ayrılan vəsait DSMF-nin 2022-ci il üzrə büdcə gəlirlərinin 21,6%-ni təşkil edəcək.

## 3.1. Azərbaycan Respublikasının Dövlət Neft Fondu

2022-ci ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) büdcəsinin gəlirləri 10,59 milyard manat proqnozlaşdırılıb. Bu, 2021-ci ilin proqnozlaşdırılmış büdcə gəlirlərindən 32,4% və ya 2,59 milyard manat çoxdur. Ötən il Fondun büdcə gəlirləri 8 milyard manat nəzərdə tutulub.

2022-ci il üçün Fondun büdcəsinin baza göstəricisi olan 1 barel neftin orta illik ixrac qiyməti 50 ABŞ dolları, milli valyutanın ABŞ dollarına qarşı orta illik məzənnəsi 1,7 götürülüb. *Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2022-ci il büdcəsi haqqında* Prezident Fərmanına görə, cari ildə büdcə gəlirləri aşağıdakı mənbələr hesabına formalaşacaq.

*Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər*[1] Fondun gəlirlərinin strukturunda ən böyük paya malikdir. DNF-nin büdcə gəlirlərinin 81,01%-i və ya 8,58 milyard manatı bu mənbə hesabına formalaşacaq. Satışdan əldə edilən xalis gəlirlər üzrə daxilolmaların həcmi 2021-ci illə müqayisədə 33,2% artıb. Ötən il bu gəlirlərin həcmi 6,44 milyard manat, ümumi gəlirlərdə payı isə 80,5% olub.

[1] Karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla

**Diaqram 17: Dövlət Neft Fondunun büdcə gəlirlərinin formalaşma mənbələri**




Hesablama Palatasının məlumatına əsasən, 2022-ci ildə Azəri-Çıraq-Günəşli yatağında xam neft hasilatının həcminin 170,1 milyon barel olması proqnozlaşdırılır və bu, 2021-ci ilin göstəricisinə (171,6 milyon barel) nisbətən 1,5 milyon barel azdır. Palata hesab edir ki, hasilatın azalmasına rəğmən yeni bağlanan müqavilələr üzrə Şahdəniz yatağından çıxarılan qazın satış qiymətinin əhəmiyyətli dərəcədə artması Fondun mənfəət nefti və qazın satışı ilə bağlı proqnozunu artıqlaması ilə (təxminən 6-7%) icra etməyə imkan verəcək.

Gəlirlərin ikinci əsas mənbəyini *DNF-nin valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlər* təşkil edəcək. Bu mənbə üzrə proqnoz 1,22 milyard manat nəzərdə tutulub ki, bu da ötən ilin proqnozu ilə müqayisədə 60,2% çoxdur. Əhəmiyyətli artım hesabına aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlirlərin ümumi gəlirlərdə payı 9,5%-dən 11,5%-ə yüksələcək.

DNF-nin aktivlərinin 2022-ci il üçün orta illik gəlirlilik göstəricisi 1,7% səviyyəsində proqnozlaşdırılıb ki, bu da 2021-ci ilin proqnoz göstəricisindən (1,09%) çoxdur. Bunlardan borc öhdəlikləri və pul bazarları alətləri üzrə gəlirlilik 0,74%, səhm portfeli üzrə gəlirlilik 4,71%, daşınmaz əmlak portfeli üzrə gəlirlilik 5,2% səviyyəsində olması gözlənilir.

Digər gəlir mənbələrindən fərqli olaraq *neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonusların* həcmində 2021-ci illə müqayisədə 1,4% azalma var. Bu mənbə üzrə mədaxil 765,340 milyon manat nəzərdə tutulub. Ümumi gəlirlərin 7,2%-i bonuslar hesabına formalaşacaq.

Məlumat üçün bildirək ki, 14 sentyabr 2017-ci il tarixli *Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş*in (*AÇG HPBS*) 29.2-ci maddəsinə əsasən, 2018-2025-ci illər ərzində ümumilikdə 3,6 mlrd. ABŞ dolları ödənilməsi nəzərdə tutulur. Bu vəsaitin 450 milyon ABŞ dolları və ya 765 milyon manatı 2022-ci ilin ilk ayında ödəniləcək.

Ötən illə müqayisədə *karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar müqavilə sahəsindən istifadə üçün sərmayəçilərin akrhesabı ödənişləri* 27,4% artaraq 5,28 milyon manat, *neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər* isə 6,2% artaraq 23,29 milyon manat olacaq.

2022-ci ildə Dövlət Neft Fondunun büdcəsinin xərcləri 12,71 milyard manat proqnozlaşdırılıb. Bu, 2021-ci ilin proqnozlaşdırılmış büdcə gəlirlərindən 4,4% və ya 540,24 milyon manat çoxdur. Ötən il Fondun büdcə xərcləri 12,25 milyard manat nəzərdə tutulub.

**Diaqram 18: Dövlət Neft Fondunun büdcəsinin xərc istiqamətləri**




Əvvəlki illərdə olduğu kimi 2022-ci ildə də Fondun illik büdcə xərclərinin əsasını dövlət büdcəsinə transfert təşkil edib. Cari ildə Fondun büdcə xərclərinin 99,4%-i və ya 12,71 milyard manatı *Azərbaycan Respublikasının 2022-ci il üzrə dövlət büdcəsinə transfert* olunacaq. 2021-ci illə müqayisədə dövlət büdcəsinə transfertin həcmi 510 milyon manat və ya 4,2% artırılıb. Bu, indiyədək edilmiş transfertin ən yüksək həddidir. 2021-ci ildə DNF-dən dövlət büdcəsinə transfertin həcmi 12,2 milyard manat proqnozlaşdırılıb. Maliyyə Nazirliyinin məlumatına görə, ötən ilin yanvar-noyabr aylarında transfertin həcmi 9,68 milyard manat olub. DNF-nin məlumatında yanvar-dekabr aylarında dövlət büdcəsinə transfert məqsədilə valyuta bazarında satılan ABŞ valyutasının cəmi 6,688 milyard dollar olub. Bu vəsait milli valyutada 11,37 milyard manata bərabərdir. Bu onu göstərir ki, satılan valyutanın illik həcmi proqnozdan (12,2 milyard manat) 830,4 milyon manat azdır.

Fondun ikinci ən böyük xərc istiqaməti onun *idarə edilməsi ilə bağlı xərclər*dir. 2021-ci illə müqayisədə Fondun idarə edilməsi xərcləri 17,6% və ya 5,09 milyon manat artırılaraq 33,99 milyon manata çatdırılıb. Fondun illik büdcəsinin 0,27%-i bu istiqamətə yönədiləcək. Bu xərc istiqaməti üzrə artımın əsas səbəbi əməyin ödənişi xərclərinin 50,6% artımı ilə bağlıdır.

Xərc istiqamətlərində ən böyük artım (35,6%) "2019-2023-cü illər üçün *Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi* maddəsindədir. Cari ildə bu istiqamətdə 27,84 milyon manat və ya illik büdcənin 0,22%-i həcmində vəsait xərclənəcək. Təhsil Nazirliyinin məlumatına əsasən, bu məbləğin 8,6 milyon manatı xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsi, 18,8 milyon manatı ikili diplom proqramlarının maliyyələşdirilməsi, habelə 436 min manatı Dövlət Proqramının icrasını təmin edəcək İdarəetmə Qrupunun 2022-ci ildə illik saxlanma xərcinin maliyyələşdirilməsi üçün nəzərdə tutulub.

Diqqəti çəkən məqamlardan biri də *Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil almaları üçün maliyyələşmə*nin bərpa edilməsidir. 2021-ci ildən fərqli

olaraq bu il gənclərin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsilinin maliyyələşdirilməsinə 17,85 milyon manat ayrılacaq.

## 3.2. Dövlət Sosial Müdafiə Fondu

2022-ci ildə Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcəsinin gəlirləri 5,31 milyard manat proqnozlaşdırılıb. Bu, 2021-ci ilin proqnozlaşdırılmış büdcə gəlirlərindən 3,1% və ya 160,74 milyon manat çoxdur. Ötən il Fondun büdcə gəlirləri 5,15 milyard manat nəzərdə tutulub.

DSMF-nin illik büdcəsinin əsas mənbəyi həmişə olduğu kimi *məcburi dövlət sosial sığorta haqları* təşkil edəcək və gəlirlərin 78,17%-i bu mənbə hesabına formalaşacaq. Fond 2022-ci ildə 4,15 milyard manat məbləğində məcburi dövlət sosial sığorta haqqı toplamağı planlaşdırır. Bu, 2021-ci illə müqayisədə 18,4% və ya 645,7 milyon manat çoxdur. Bu artımın əsas ağırlığı (56,4%) *büdcə sektorunun* üzərində olacaq. Büdcə sektoru əvvəlki illə müqayisədə Fonda 364 milyon manat çox vəsait ödəyəcək.

**Diaqram 19: Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlir mənbələri**




Ümumiyyətlə, məcburi dövlət sosial sığorta haqları üzrə yığımın 41,2%-i *büdcə*, 58,8%-i isə *qeyri-büdcə* sektorunun payına düşür. Halbuki 2021-ci ildə büdcə sektorunun sığorta haqlarında payı 38,4% olub. Cari ildə *büdcədən maliyyələşən təşkilatlardan* 1,5 milyard manat, *büdcədən maliyyələşən təşkilatlarda işləyənlərdən* 205,13 milyon manat, *qeyri-büdcə sektorundan* 2,44 milyard manat yığılacaq. 2021-ci illə müqayisədə büdcə sektoru üzrə yığımın 27,1%, qeyri-büdcə sektoru üzrə 13,1% artacağı proqnozlaşdırılıb.

Qeyri-büdcə sektorundan yığılacaq vəsaitin 60 milyon manatı sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür. 2022-ci ildə minimum əmək haqqının 20% artırılmasına rəğmən bu mənbə üzrə proqnoz dəyişilməz - 2021-ci il səviyyəsində saxlanılıb. Bu onu göstərir ki, 2022-ci ildə qeyri-büdcə sektoru üzrə artım həmin sektorda fəaliyyət göstərən hüquqi şəxslərdə muzdla işləyən sığortaolunanların hesabına baş verəcək.

Fondun gəlirlərinin formalaşmasında dövlət büdcəsi əhəmiyyətli rol oynayır və hər il dövlət büdcəsindən Fonda transfer edilir. 2022-ci ildə Fondun gəlirlərinin 21,6%-ni *dövlət sosial*

*müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlər* təşkil edəcək. Bu məqsədlə dövlət büdcəsindən 1,15 milyard manat ayrılacaq. Diqqəti çəkən məqam budur ki, 2021-ci illə müqayisədə dövlət büdcəsindən transfertin həcmi 29,8% və ya 485,56 milyon manat azaldılıb. Bununla da transfertin gəlirlərdə payı 31,7%-dən 21,6%-ə düşüb.

*Sair gəlirlər* üzrə mədaxil cari ildə 5% artırılaraq 12,6 milyon manata çatdırılıb.

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcəsinin 2022-ci ildəki xərcləri gəlirlərdə olduğu kimi 5,31 milyard manat proqnozlaşdırılıb. Bu, 2021-ci ilin proqnozlaşdırılmış büdcə xərclərindən 3,1% və ya 160,74 milyon manat çoxdur.

**Diaqram 19: Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərc istiqamətləri**







2022-ci ildə DSMF-nin illik büdcəsinin 96,7%-i və ya 5,13 milyard manatını *əhaliyə ödənişlər üzrə xərclər* təşkil edəcək. Bu, 2021-ci illə müqayisədə 2,6% və ya 128,21 milyon manat çoxdur.

Əhaliyə ödənişlər üzrə xərclərin 96,5%-i və ya 4,95 milyard manatı *əmək pensiyalarının*, 3,5%-i və ya 182 milyon manatı *məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin* ödənilməsinə yönləndiriləcək. 2021-ci illə müqayisədə əmək pensiyaları xərcləri 1,4%, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsi xərcləri 31,5% artıb.

Məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin ödənilməsi xərcləri bir neçə istiqaməti əhatə edir. Bura əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə, 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar və dəfn üçün xərclər daxildir. *Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə* 2022-ci ildə 52 milyon manat və ya əvvəlki illə müqayisədə 37,2% çox vəsait ayrılması nəzərdə tutulub. *Hamiləliyə və doğuma görə* 50 milyon manat, *uşağın anadan olmasına* görə 20 milyon manat, *3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar* 15 milyon manat, *dəfn üçün* 45 milyon manat xərclənəcək. Ötən illə müqayisədə *hamiləliyə və doğuma görə* (19,9%), *uşağın anadan olmasına* görə (41%), *dəfn üçün xərclər* (46,5%) *artdığı halda 3 yaşına çatanadək uşaqlara qulluqla əlaqədar* xərclər azalıb (7,8%).

DSMF-nin büdcəsində *Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə xərclər* 1 milyon manat artırılaraq 21,5 milyon manata, *Beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi xərcləri* 5 milyon manat artırılaraq 65 milyon manata çatdırılıb, *Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında 2004-cü il 23 sentyabr tarixində imzalanmış "İnkişaf üçün Kredit Sazişi"nə əsasən "Pensiya və sosial təminat" layihəsi üzrə kreditin qaytarılması xərcləri* isə sabit – 600 min manat səviyyəsində saxlanılıb.

*DSMF-nin müəyyən etdiyi qurumun əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri* 49,5% və ya 16,1 milyon manat artırılaraq 48,7 milyon manata qaldırılıb. Pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərclərinin ödənilməsinə 2022-ci ildə 18,7 mln. manat vəsait ayrılması proqnozlaşdırılır.

*DSMF aparatının və digər struktur bölmələrinin saxlanılması xərcləri* illik büdcənin ikinci ən böyük xərc maddəsidir. 2022-ci ildə bu istiqamətdə 102,9 milyon manat xərclənməsi planlaşdırılır ki, bu da əvvəlki illə müqayisədə 15,4 milyon manat və ya 17,6% çoxdur. Ümumilikdə büdcə xərclərinin 1,9%-i bu maddənin payına düşür. Hesablama Palatasının rəyinə görə, saxlanma xərclərinin payı son illər artım tendensiyası göstərir və 2019-cu ildəki 1,3%-dən 1,9%-ə yüksəlib.

## 3.3. İşsizlikdən Sığorta Fondu

2022-ci ildə İşsizlikdən Sığorta Fondunun (İSF) büdcəsinin gəlirləri 180,4 milyon manat proqnozlaşdırılıb. Bu, 2021-ci ilin proqnozlaşdırılmış büdcə gəlirlərindən 14,3% və ya 22,6 milyon manat çoxdur. Ötən il İSF-nin büdcə gəlirləri 157,8 milyon manat nəzərdə tutulub.

**Diaqram 20: İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlir  mənbələri**




İSF-nin illik büdcəsinin əsas formalaşma mənbəyini *işsizlikdən sığorta üzrə sığorta haqları* təşkil edir. 2022-ci ildə büdcə gəlirlərinin 75,63%-i, 2021-ci ildə 76,06%-nin bu mənbə hesabına formalaşması gözlənilir. İşsizlikdən sığorta üzrə sığorta haqları ötən illə müqayisədə 13,7% artırılaraq 136,4 milyon manata çatdırılıb.

*İşsizlikdən sığorta üzrə sığorta haqları* 3 mənbə - büdcədən maliyyələşən təşkilatlar və həmin təşkilatlarda işləyənlər və qeyri-büdcə sektoru hesabına formalaşacaq. Cari ildə *büdcədən maliyyələşən təşkilatlardan* 21,7 milyon manat (əvvəlki illə müqayisədə 29,4% çox), *büdcədən maliyyələşən təşkilatlarda işləyənlərdən* 21,7 milyon manat (29,4% çox) və *qeyri-büdcə sektorundan* 93 milyon manat (7,6% çox) həcmində vəsaitin mədaxili proqnozlaşdırılıb. Bununla da sığorta haqlarında ümumilikdə büdcə sektorunun payı 28%-dən 31,8%-ə yüksəlib.

İSF-nin gəlir mənbələrindən biri də *Fondun istifadə olunmamış vəsaitidir*. 2022-ci ildə Fondun 2021-ci ildə istifadə olunmamış vəsaitinin məbləğinin əvvəlki illə müqayisədə 16,3% artaraq 43,9 milyon manat olacağı proqnozlaşdırılır. Bu, büdcə gəlirlərinin 24,3%-i həddindədir.

Büdcə gəlirlərinin digər mənbəyi olan *sair gəlirlər* 30 milyon manatdan 50 milyon manata qədər artırılıb.

2022-ci ildə İSF büdcəsinin xərcləri 180,4 milyon manat proqnozlaşdırılıb. Bu, 2021-ci ilin proqnozlaşdırılmış büdcə xərclərindən 14,3% və ya 22,6 milyon manat çoxdur.

İSF-nin büdcəsinin əsas xərc istiqamətini ümumi xərclərin 42,2%-nə bərabər olan *özünüməşğulluq tədbirlərinin maliyyələşdirilməsi* təşkil edir. Bu il *özünüməşğulluq tədbirlərinin təşkilinə* 76,1 milyon manat xərclənməsi planlaşdırılıb. Bu, ötən illə müqayisədə 10,7% və ya 7,3 milyon manat çoxdur.

*İSF-nin saxlanması xərcləri* ikinci ən böyük xərc maddəsidir. İllik büdcənin 24,3%-i və ya 43,8 milyon manatı İSF-nin aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların saxlanılması xərclərinə yönəldiləcək. İSF-nin saxlanması xərcləri ötən illə müqayisədə 4,2% artıb.

İllik büdcə xərclərinin 16,6%-ni təşkil edən *əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi* xərcləri əvvəlki illə müqayisədə 2 dəfə artırılaraq 30 milyon manata çatdırılıb. 2021-ci ildə bu xərclərin büdcədə payı 9,5% olub.

**Diaqram 21: İşsizlikdən Sığorta Fondunun büdcəsinin xərc istiqamətləri**




*Peşə hazırlığı və əlavə təhsilin təşkili* xərcləri 28,6% artırılaraq 9 milyon manata, *sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi* xərcləri 50% artırılaraq 3 milyon manata, *haqqı ödənilən ictimai işlərin təşkili* xərcləri isə 25% artırılaraq 2,5 milyon manata çatdırılıb.

Bir sıra xərc istiqamətləri üzrə proqnoz əvvəlki illə müqayisədə azaldılıb. *İşsizliyə görə sığorta ödənişləri* 2021-ci illə müqayisədə 34,6% və ya 4,5 milyon manat azalaraq 8,5 milyon manata endirilib. Bununla da işsizliyə görə sığorta ödənişlərinin büdcə xərclərində payı 8,2%-dən 4,7%-ə düşüb. Bundan başqa *peşə standartlarının hazırlanması* və *sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin olunması üçün əlavə iş yerlərinin yaradılması* fəaliyyətləri üzrə xərclərin hər ikisi 50% azaldılaraq 1 milyon manata endirilib.

Əmək yarmarkalarının, əmək birjalarının təşkilinə və *qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər*in hər birinin maliyyələşdirilməsinə 2021-ci ildə olduğu kimi 1 milyon manat xərclənəcək. *Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi* xərcləri də dəyişməz – 2 milyon manat səviyyəsində saxlanılıb.

İSF-nin 2022-ci il büdcəsinə yeni istiqamət - *sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi* daxil edilib və bu istiqamət üçün 1,5 milyon manat xərclənməsi proqnozlaşdırılıb.

2022-ci ildə Fondun xərclərinin 106,6 mln. manatı və ya 59,1%-i əhalinin məşğulluğunun təmin edilməsinə, 73,8 mln. manatı və ya 40,9%-i Dövlət Məşğulluq Agentliyinin, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın saxlanılması, habelə Nazirliyin əhaliyə sosial xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərclərinə yönəldiləcəkdir. 2020-2022-ci illərdə əhalinin məşğulluğunun təmin edilməsi xərclərinin 108,2 milyon manatdan 106,6 milyon manata azaldılması onun ümumi büdcədə payının 71,6%-dən 59,1%-ə kimi düşməsi ilə nəticələnib.